# HEYDƏR ƏLİYEVİN EKOLOJİ SİYASƏTİ VƏ UŞAQ ƏDƏBİYYATINDA TƏBİƏT MÖVZUSU

**Nərgiz Hacıyeva**

*AMEA-nın İ.Nəsimi adına Dilçilik İnstitutu, Bakı*
*nergiz.haciyeva.1961@mail.ru*

Azərbaycan xalqının Ümummilli Lideri, Ulu Öndər Heydər Əliyev hakimiyyətə gəldiyi gündən təbiətin, milli sərvətlərin, meşələrin, su mənbələrinin və kənd təsərrüfatının qorunması sahəsində mühüm tədbirlər görmüş, bu məsələlər barədə bir sıra sərəncamlar qəbul etmişdir.

Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının 1972-ci il tarixli qərarı ilə hər ilin 5 iyununda Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günü kimi qeyd olunur. Dünyada olduğu kimi, Azərbaycanda da hələ ötən əsrin 70-ci illərindən Ölkə Başçısı Heydər Əliyevin qəbul etdiyi qərarlara görə, təbiəti və ekologiyanı qorumaq sahəsində bir sıra tədbirlər həyata keçirilmişdir. Ümummilli Lider yenidən siyasi hakimiyyətə qayıdandan sonra da ekologiyaya diqqətini artırmış, təbiətin, ətraf mühitin qorunması barədə "Ətraf mühitin mühafizəsi haqqında", "Ekoloji təhlükəsizlik" haqqında qərarları, "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri" barədə sərəncamlar imzalamışdır. "Ətraf mühitin mühafizəsi haqqında" qanunda deyilir: "Bu Qanun ətraf mühitin mühafizəsinin hüquqi, iqtisadi və sosial əsaslarını müəyyən edir. Qanunun məqsədi ətraf mühitin ekoloji tarazlığının mühafizəsi sahəsində ekoloji təhlükəsizliyin təmin edilməsindən, təbii ekoloji sistemlərə təsərrüfat və başqa fəaliyyətlərin zərərli təsirinin qarşısının alınmasından, bioloji müxtəlifliyin qorunub saxlanılmasından və təbabətdən istifadənin səmərəli təşkilindən ibarətdir. Bu Qanun ətraf mühitin keyfiyyətinin yaxşılaşdırılması, təbii ehtiyatların səmərəli istifadəsi və bərpası, ətraf mühitin mühafizəsi sahəsində qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsi məqsədilə cəmiyyətlə təbiətin qarşılıqlı əlaqəsini tənzimləyir". Ulu Öndərin yolunu davam etdirən Azərbaycan Respublikasının Prezidenti, cənab Ali Baş Komandan İlham Əliyev bu qərar və qətnamələrin həyata keçirilməsi yolunda səylə çalışır.

Ölkədə ekoloji təmizlik və ətraf mühitin qorunması sahəsində atılan uğurlu addımlar cəmiyyətə də təsir göstərmiş, bu sahədə insanların ictimai şüurunda bir yenilənmə, canlanma yaranmışdır. Bu vəziyyət eyni zamanda ədəbiyyata da təsirsiz ötüb keçməmişdir. Xüsusilə uşaqlar üçün yazılan əsərlərdə təbiəti sevmək, ekologiyanı qorumaq, ətraf aləmi uşaqlara tanıtmaq, buradakı heyvan və quşlara, canlı bitki aləminə qayğı göstərmək, maddi mədəniyyət abidələrini qorumaq kimi vacib məsələlər yazıçılar tərəfindən yazılan nəzm və nəsr əsərlərində önə çəkilmişdir.

Bir çox yazıçı və şairlərin əsərlərində təbiət hadisələri təsvir olunur, kiçik yaşlı uşaqlara təbiət hadisələri və canlılar barədə məlumat verilir. Uşaq yazıçılarından M.Dilbazi, M.Gülgün, Ə.Əhmədova, Həbibə, Z.Xəlil, T.Elçin, M.Aslan, M.Rzaquluzdə, X.Əlibəyli, M.Seyidzadə, İ.Tapdıq, M.Əliyev, T.Mahmud və b. şeirlərində təbiətin gözəllikləri, müxtəlif bitki və heyvanlar aləmi, vətənimizin ayrı-ayrı yerləri təsvir olunur, meşələrin, heyvanlar aləminin qorunub saxlanılması barədə tövsiyələr veriilir. Müasir dövrdə də uşaq yazıçılarından Sevinc Nuruqızı, Reyhan Yusifqızı, Vüqar Haqverdiyev, Əfsanə Laçın, Aygün Bünyadzadə, Gülzar İbrahimova, Samirə Əşrəf, İlham Əziz, Ələmdar Quluzadə, Mina Rəşid, Aləmzər Əlizadə və bir çox başqalarının əsərərində uşaqlara təbiəti qorumaq, onun gözəlliklərindən zövq almaq, ekologiyanı təmiz saxlamaq kimi fikirlər aşılanır.

Uşaqlar üçün oxunması nəzərdə tutulan və 1958-ci ildən dövri mətbuatda nəşr olunan "Göyərçin" jurnalında "Təbiət guşəsi" adlı bir bölüm açılmış, burada ayrı-ayrı canlılar, ağaclar, heyvanlar və quşlar barədə məlumat verilmiş, onlara qayğıdan söz açılmışdır. Burada eyni zamanda ayrı-ayrı uşaq yazıçılarının müxtəlif quşlar, heyvanlar, ağaclar barədə şeirləri, ayrı-ayrı bitkilərin nə üçün belə adlanması, heyvan və quşlara sevgi məsələsi, təbiətə qayğı kimi tərbiyəvi fkirləri uşaqlara aşılanır. "Göyərçin" jurnalının 1975-ci il, 1-ci nömrəsində Ə.Vəliyev "Salxım" hekayəsində üzüm adlarını sadalayaraq, uşaqların ayrı-ayrı üzüm növlərini tanımasına şərait yaradır. Bunlar Qaraşirə, Mərcani, Xatunu, Keçiəmcəyi kimi üzüm növləridir. Ə.Əhmədova "Onun xətri əzizdir" adlı hekayəsində Qaymaqçiçəyi, Lalə, İncigülü, Nərgiz, Çobanyastığı, Novruzgülü kimi gül adlarını uşaqlara tanıdır. Jurnalın 1975-ci il, 2-ci nömrəsində R.Rzanın "Göyərçin", "Şanapipik", "Qaratoyuq", "Bülbül", "Sığırçın", "Sarıköynək", "Alabaxta", "Qaranquş", "Göycəqarğa", "Sərçə", "Dolaşa", "Bayquş", "Alacəhrə", 1971-ci il, 9-cu nömrəsində M.Gülgünün "Badam", "Püstə", "İydə", "Fındıq", "Kişmiş", "Küncüt", "İnnab", "Çiyələk" adlı kiçik ölçülü şeirləri uşaqlara ayrı-ayrı quşların və bitkilərin xüsusiyyətlərini açıqlayır.

Yazıçı və şairlər gül və heyvan adlarını sadalamaqla kifayətlənmir, onları müəyyən epitetlərlə ifadə edirlər ki, bu da həmin canlıların uşaq yaddaşında daha yaxşı saxlanılmasını təmin edir. Belə ki, M.Rzaquluzadənin "Quş dili bilən Orxan" hekayəsində deyilir: "Orxan quşların dostu idi… Bu həyətdən həmişə cürbəcür quşların səsi gəlir, həmişə rəngbərəng quşlarla dolu olurdu: kəkilli boz torağaylar, qara çil sığırçınlar, alabəzək şanapipiklər, limon rəngli sarıköynəklər, döşü qırmızı alacəhrələr, göyümtül, xinəyi qumrular, boğazı xallı bildirçinlər, xırdaca birəbitdənlər… ("Göyərçin j., 1972, № 6).

Güllərin adını da gözəl adla adlandırmaq məqsədilə yazıçılar uşaqlara öyüd verirlər. Belə ki, Ə.Vəliyev jurnalın 1973-cü il, 4-cü nömrəsində "Hər gülün öz adı" adlı hekayəsində bitkinin xalq arasında deyildiyi kimi, "Danaqıran" deyil, "Novruzgülü" adlanmasını daha düzgün hesab edir. Bəzən ağacların adları xüsusi epitetlərlə işlənir. Məsələn, cökə ağacı "Yanğınsöndürən ağac" (Davud Dəmirli. "Göyərçin" j., 1971, № 1), qara şam ağacı "Tayqanın şahzadəsi" kimi adlandırılır. Uşaqlara heyvanların və həşəratların da xeyirli cəhətlərini göstərmək məqsədilə qarışqalar "Meşə gözətçiləri" (1972, № 5) və qozu yeyərək toxumunu yerə atmaq nəticəsində yeni qozalar yarandığı üçün dələ "Bağban dələ"adlanır (Ə.Əhmədova. 1971, № 9).

Meyvələrin adlarının uşaq yaddaşında daha yaxşı saxlanılması üçün şairlər onların adlarına uyğun meyvə adlarını qafiyə şəklində göstərirlər. Mikayıl Rzaquluzadənin "Ən dadlı meyvə" şeirində oxuyuruq:

Bir gün bir qoca bağban
Soruşdu uşaqlardan:
Ən dadlı meyvə nədir?
Deyin hansı meyvədir?..
Onun bu sualına
Cavab verdi uşaqlar.
Aytək dedi: – Çiyələk!
Eliş dedi: – Göy yemiş!
Gülnar dei: – Gilənar!
Maral dedi: – Portağal!
Alı dedi: – Şaftalı!
Qulu dedi: – Yox, hulu!
Nərmin dedi: – Mandarin!
Naz-naz dedi: – Ananas! ("Göyərçin" jurnalı, 1959, № 1).

Xalq yazıçısı Süleyman Rəhimovun "Ceyran" hekayəsində adları bəzi heyvan və quş adları ilə adlanan uşaqlara həmin canlıları sevmək tövsiyə olunur: "Baba, mənim böyük bacım Turac da turacları sevir. Ceyran ceyranları sevməlidir, bəsləməlidir, çoxaldıb birə-yüz artırmalıdır. Kəklik bacım da kəkliklərlə dostlaşıbdır, baba! Hələ Şahin oğlan da şahinlərlə, Tərlan da tərlanla dostlaşmağa başlayıb. Maral maralla bacılıq olub" (S.Rəhimov. Seçilmiş əsərləri, 9-cu cild).

Qeyd etmək lazımdır ki, ədəbiyyatşünaslar kimi, bir çox dilçilər də uşaqların, gənc nəslin təlim-tərbiyəsində təbiətin rolunu yüksək qiymətləndirirlər. Belə ki, dilçi alim, professor M.Adilov "Bağımız, gülümüz, dilimiz" ("Bakı qəzeti", 1967-ci il, 31 may, s. 3) adlı məqaləsində yazır: "Təbiət dərslərində orta məktəb şagirdləri güllər ilə tanış olurlar. Lakin görünür, bu hələ kifayət deyildir… Yaxşı olardı ki, əkilən güllərin yanında onların ana dilimizdəki adları yazılmış kiçik lövhəciklər basdırılsın. Bu halda uşaq da, böyük də istər-istəməz gülləri daha yaxşı tanıyar, daha çox sevər, daha dərindən zövq alar, öz biliyini artırmış olar… Təbiəti sevmək və dərk etmək işində uşaqlara və yeniyetmələrə kömək etmək istəyiriksə, gülləri onlara real şəkildə tanıtmaq məsələsinə biganə qalmamalıyıq".

Ayrı-ayrı bitkilərin adını, etimologiyasını uşaqlara izah etmək üçün şairlər söz oyunundan istifadə edirlər. İ.Tapdığın "Şabalıd" şeirində oxuyuruq: Şabalıddı, Şah palıddı, Çox ağacdan Ucadır!; və yaxud "Çaytikanı" şeirində deyilir: Çay qırağı, Çaylaqdı Yeri-yurdu Məkanı, Çayla tikandan alıb Adını Çaytikanı.

Uşaq ədəbiyyatında təbiət hadisələrinin səsini vermək üçün müxtəlif təqlidi sözlərdən istifadə edilir. Çayların şırıltısı, quşların cəh-cəhi, ildırımın çaxması, müxtəlif heyvanların səsini ifadə etmək üçün səstəsviri və səstəqlidi sözlərdən uşaq ədəbiyyatında geniş istifadə olunur.